# “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununu “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1366-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 6, maddə 497; 1999, N 5, maddə 285; 2001, N 3, maddələr 141, 142, 143, 144, N 11, maddələr 672, 687, 693; 2002, N 5, maddələr 240, 244, N 6, maddə 328; 2003, N 6, maddə 256; 2004, N 4, maddə 199, N 6, maddə 396, N 7, maddə 507; 2006, N 2, maddə 66, N 12, maddə 1028; 2007, N 6, maddə 560, N 11, maddə 1052, N 12, maddə 1197; 2008, N 7, maddə 602; 2009, N 2, maddə 46, N 12, maddə 949; 2010, N 11, maddə 962; 2011, N 2, maddələr 70, 71, N 7, maddə 616; 2012, N 6, maddə 510; 2013, N 11, maddələr 1285, 1305, 1316; 2015, N 2, maddə 104, N 4, maddə 345, N 6, maddə 681; Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 76-VQD nömrəli Qanunu) 28-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində “Cinayət” sözündən sonra “və ya inzibati həbs nəzərdə tutan inzibati xəta” sözləri əlavə edilsin və “qanunvericiliyinə” sözü “Mülki Prosessual Məcəlləsinə” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2016-cı il*